# MÜNDƏRİCAT


Müəllifin ön sözü ............................................................................7

**Birinci kitab. HƏYATA QAYTARILMIŞ**

**I fəsil.** TARİXİ DÖVR ..........................................................................10
**II fəsil.** POÇT ........................................................................................13
**III fəsil.** GECƏ KÖLGƏLƏRİ ...............................................................20
**IV fəsil.** HAZIRLIQ ................................................................................25
**V fəsil.** ŞƏRAB DÜKANI .......................................................................38
**VI fəsil.** ÇƏKMƏÇİ ................................................................................49

**İkinci kitab. QIZIL SAP**

**I fəsil.** BEŞ İL SONRA ...........................................................................62
**II fəsil.** MƏNZƏRƏ ................................................................................69
**III fəsil.** MƏYUSLUQ .............................................................................77
**IV fəsil.** TƏBRİK ....................................................................................94
**V fəsil.** ÇAQQAL ..................................................................................102
**VI fəsil.** İNSAN AXINI ..........................................................................109
**VII fəsil.** ZADƏGAN ŞƏHƏRDƏ ...........................................................124
**VIII fəsil.** MARKİZ KƏNDDƏ ..............................................................134
**IX fəsil.** QORQONUN BAŞI .................................................................140
**X fəsil.** İKİ VƏD ....................................................................................153
**XI fəsil.** DOSTYANA SÖHBƏT .............................................................162
**XII fəsil.** NƏZAKƏTLİ ADAM ..............................................................167
**XIII fəsil.** KOBUD ŞƏXSİYYƏT ...........................................................175
**XIV fəsil.** ƏMƏLİSALEH ADAM ...........................................................181

**XV fəsil.** KƏFƏNTOXUYAN QADIN ............................................193
**XVI fəsil.** KƏFƏNTOXUMA ............................................................206
**XVII fəsil.** BİR GECƏ ..................................................................218
**XVIII fəsil.** DOQQUZ GÜN ..........................................................224
**XIX fəsil.** HƏKİM MƏSLƏHƏTİ ..................................................231
**XX fəsil.** BƏRAƏT ........................................................................240
**XXI fəsil.** AYAQ SƏSLƏRİNİN ƏKS-SƏDASI ..............................245
**XXII fəsil.** DƏNİZ HƏLƏ DƏ KÜKRƏYİR ...................................258
**XXIII fəsil.** TONQAL ALOVLANIR ..............................................265
**XXIV fəsil.** MAQNİTLİ QAYAYA CƏZB OLUNMA ....................273

**Üçüncü kitab. FIRTINANIN İZİ**

**I fəsil.** GİZLİ KAMERA ..................................................................288
**II fəsil.** BÜLÖV DAŞI ......................................................................301
**III fəsil.** KÖLGƏ ............................................................................309
**IV fəsil.** FIRTINADA SAKİTLİK ......................................................315
**V fəsil.** ODUNDOĞRAYAN ..............................................................321
**VI fəsil.** TRİUMF ............................................................................329
**VII fəsil.** QAPININ DÖYÜLMƏSİ ....................................................337
**VIII fəsil.** KART OYUNU ..................................................................344
**IX fəsil.** OYUNUN DAVAMI ..............................................................359
**X fəsil.** KÖLGƏNİN BƏDƏNİ ..........................................................374
**XI fəsil.** ALA-TORAN ......................................................................391
**XII fəsil.** ZÜLMƏT QARANLIQ ........................................................396
**XIII fəsil.** ƏLLİ İKİ ..........................................................................406
**XIV fəsil.** KƏFƏNİN SONUNCU İLMƏSİ ........................................420
**XV fəsil.** ƏBƏDİ SUSAN ADDIM SƏSLƏRİ ...................................434

# Müəllifin ön sözü

Uşaqlarım və dostlarımla birlikdə mister Uilki Kollinsin "Buz bağlamış girdab" dramını tamaşaya qoyduğumuz vaxt romanın əsas ideyası ağlıma gəldi. Tamaşaçının qəlbini ələ alıb onu maraqlandırmaq üçün rola girib bu ideyanı təcəssüm etdirmək istəyi mənə rahatlıq vermirdi, bunun üçün ilk növbədə hansı məqamları qabartmağın zəruri olduğunu təsəvvürümdə canlandırmağa çalışırdım.

Axır ki, ideyanın nədən ibarət olduğu mənə aydın oldu və tədricən indiki formaya düşdü. Əsəri səhnələşdirdiyimiz vaxt ideya bütövlükdə ruhuma hakim kəsilmişdi, o səbəbdən romanda təsvir olunan hadisələr başıma gəlmiş, yaxud gözümlə görüb şahidi olduğum hadisələrdən heç nə ilə fərqlənmir.

Fransız xalqının inqilabdan əvvəlki və inqilab dövründəki həyat və məişətiylə bağlı təsvirlərin (hətta ən əhəmiyyətsiz görünən detallar belə) reallığına gəlincə, burada hər şey kifayət qədər etibarlı mənbələrə əsaslanmışdır. Ümid edirdim ki, o dəhşətli dövrün daha yaxşı anlaşılması üçün populyar və cəlbedici görünə bilən yeni səhifələr yaza bilərəm, amma, sən demə, mister Karleylin gözəl kitabının fəlsəfəsinə nəsə əlavə etmək barədə düşünməyə dəyməzmiş.

***Tavistok Haus***
***Noyabr, 1859-cu il***

# **BİRİNCİ KİTAB**
# HƏYATA QAYTARILMIŞ

# I fəsil

# TARİXİ DÖVR

Yaxşı zaman idi, bəlkə də, çox pis idi, müdriklik vaxtıydı, ya da sərsəmlik vaxtıydı, inam zamanıydı, şübhələr dövrüydü, aydınlıq vaxtı, qaranlıq vədəsiydi, ümidlərin baharıydı, ümidsizliyin qışıydı, qarşıda hər şey var idi, heç nə də yox idi, biz göylərə qalxırdıq, ya da tamam başqa bir yolla gedirdik, – sözün qısası, indikinə oxşamayan başqa zaman idi və o dövrün hay-küyçü avtoritetləri qışqırıb tələb edirdilər ki, istər yaxşı, istərsə də pis mənada olsun, hər halda, o dövrdən danışanda ən yaxşı epitetlərdən istifadə olunmalıdır.

O vaxt İngiltərənin taxt-tacı iri çənəli kralın və heç də qəşəng olmayan kraliçanın, Fransanın taxt-tacı isə iri çənəli kralın və qəşəng kraliçanın əlindəydi. Hər iki ölkənin hakim dairələri zərrə qədər də şübhə etmirdi ki, mövcud qayda-qanun dəyişməzdir, əbədidir.

1775-ci il idi. İndi olduğu kimi, həmin o diqqətəlayiq dövrdə də göylərdən İngiltərəyə elə bil vəhy gəlmişdi. Missis Sautkott 25 yaşının tamam olmasını təzəlikcə qeyd eləmişdi və bu münasibətlə kralın şəxsi mühafizə dəstəsinin sıravi üzvlərindən olan bir nəfər uzaqgörənlik eləyib demişdi ki, yubiley günü fəlakət baş verəcək: London Vestminsterlə birlikdə çöküb yerlə yeksan olacaq. Fövqəladə cəfəngiyatlar danışan əvvəlki spiritualistlərin hamısı kimi, o dünyadan gəlib xəbərlər gətirən Kokleyn cadugərinin susdurulub sakitləşdirildiyi vur-tut on iki il olardı. Son vaxtlar Amerikadakı Britaniya təbəələri konqresindən ingilis kralına və xalqına ünvanlanmış, çox sadə dildə yazılmış məktublar

gəlməyə başlamışdı və nə qədər qəribə olsa da, o məktublar Kokleyn cücələrindən gələn məktublarla müqayisədə bəşəriyyət üçün daha ciddi əhəmiyyət kəsb edirdi.

Qalxanla və üçdişli nizəylə silahlanmış bacısıyla müqayisədə ruhların az himayə etdiyi Fransa kağız pullar kəsib dövriyyəyə buraxdı və uçuruma yuvarlandı. Xristian keşişlərin fitvasına uyaraq, yağışlı gündə 50-60 yardlıq məsafədən ötüb-keçən iyrənc monax dəstəsinə baş əyib, dizini palçığın içində yerə atmadığı üçün gənc bir yeniyetməni amansız cəzaya – hər iki qolu kəsilib dili kökündən çıxardılandan sonra diri-diri odda yandırılma cəzasına məhkum etməklə Fransa humanizm sahəsində də böyük nailiyyətlər əldə etmişdi. O bədbəxt yeniyetmə əzablar içində edam edildiyi vaxt sonradan icad olunmuş və insanlıq adına ləkə gətirmiş gilyotinin – bıçaqlı, torbalı başkəsən maşının hazırlanmasında material kimi istifadə olunacaq və bu səbəbdən də odundoğrayanların Tale adlandırdıqları ağaclar Fransayla Norveçin meşələrində, olsun ki, hələ təzə-təzə pöhrələnib boy atmağa başlamışdı. Ola da bilər ki, edam günü Paris yaxınlığındakı kəndlərdən birində yaşayan kəndlinin həyətində qoşqudan açılıb çardağın altındakı dalda yerdə saxlanmış, içində toyuqlar yatışıb, altında donuzlar xortuldaşan palçıqlı, kobud arabanı Ölüm seçib bəyənmiş, İnqilab arabası kimi manşırlamışdı. Odundoğrayanla Ölüm saman altdan su yeridib gizli işləyirlər, nə vaxt yaxınlaşdıqlarını heç kim hiss eləmir, amma kim desə ki, onlar həmişə oyaqdır, heç vaxt yatmırlar, o adamı dərhal allahsız və qiyamçı elan edirlər.

İngilislər öz ölkələrindəki firavan həyatla, möhkəm qayda-qanunlarla öyünsələr də, buna əsas yox idi; belə ki, nəinki hansısa əyalətdə, hətta paytaxtın özündə də hər gecə silahlı quldur dəstələri yolkəsənlik eləyir, soyğunçuluqla məşğul olurdu; hakimiyyət nümayəndələri əhalini ehtiyatlı olmağa çağırır, şəhəri tərk etməli olan ailələrə tövsiyə edirdilər ki, mənzillərini tərk etməmişdən öncə ev əşyalarını təhlükəsiz saxlanc yerlərinə təhvil versinlər; gündüzlər ticarətlə məşğul olan sakit bir adam gecələr quldur dəstəsinə qoşulub soyğunçuya çevrilirdi; basqına məruz qalmış bir tacir soyğunçulara başçılıq eləyənin öz şəriki olduğunu görüb onu adıyla çağırır, dəstəbaşı isə dostunun təpəsinə bir güllə çaxıb atını çaparaq aradan çıxıb; yeddi nəfərdən ibarət olan silahlı

dəstə poçt karetinə hücum edib, mühafizəçi onlardan üçünü öldürsə də, hamısını məhv etməyə gülləsi çatmayıb, özü isə aldığı güllə yarasından ölüb, bundan sonra quldurlar tam bir sakitlik şəraitində kareti soyub talayıblar; Fernem çəmənliyində günün günorta çağı silahlı quldur Londonun lord-merini saxlayıb: şəhər merini müşayiət edənlərin gözü qarşısındaca onu soyublar, nəyi varsa, götürüb aradan çıxıblar; London həbsxanalarında məhbuslarla nəzarətçilər arasındakı toqquşmaları yatırtmaq üçün məhbuslara atəş açılır; kral sarayının qəbul otaqlarına soxulmuş oğrular zadəganların boynundan asılmış brilyant işləməli qızıl xaçların hamısını kəsib aparıblar; əsgərlər Sent Cayls kilsəsinə soxulub orada qaçaqmalçılıq yoluyla daşınan mal axtardıqları vaxt adamlar əsgərlərə atəş açıb, əsgərlər də cavab atəşi açıblar və bu mənzərəni seyr edənlər əsla təəccüblənməyiblər. Belə bir şəraitdə cəllad lazım idi və o da var idi, yorulmadan da işləyirdi: baxırdın ki, ya uzun cərgələrə düzülüb növbə gözləyən caniləri bir-bir asır, yaxud çərşənbə axşamı ələ keçmiş mənzil qarətçisini şənbə günü edam edir, ya da Nyuqeyt həbsxanası məhbuslarını qızmış dəmirlə damğalayır, yaxud Vestminsterin giriş qapısı tərəfdə bir yığın pamfleti yandırmaqla məşğuldur; bu gün qaniçən qatili edam edirdi, sabahkı gün də 6 pens oğurlamış bədbəxtin birini asırdı, – cəllad bax beləcə gecə-gündüz işləyir, cinayətkarları vaxtlı-vaxtında cəzalandırırdı, amma bunun bir xeyri olmurdu.

Bu cür və buna bənzər minlərlə hadisə artıq keçmişdə qalmış həmin o gözəl 1775-ci ildə baş verirdi. Bu cür hadisələrlə zəngin olan həmin o dövrdə Odundoğrayanla Ölüm gecə-gündüz yatmayıb öz işlərini görür, səssizcə yaxınlaşırdılar, iki yekəçənə kral və biri qəşəng, o biri isə çirkin olan iki kraliça da firavanlıq içində şad-xürrəm yaşayır və hesab edirdilər ki, mövcud qayda-qanun əbədidir, dəyişməzdir. Beləliklə, 1775-ci il külli-ixtiyar sahibi olan hakimi-mütləqləri və saysız-hesabsız xırdaca adamları – bizim salnamədə onların bəzilərindən danışılacaq – zamanın yollarıyla irəliyə doğru aparmaqdaydı.